# Ali təhsillə bağlı yeni qanun layihəsi hazırlanır

"Oktyabr ayının birinci ongünlüyündə "Ali təhsil haqqında" yeni qanun layihəsi Milli Məclisin Elm və təhsil komitəsinin iclasında müzakirəyə çıxarılacaq".

Milli Məclisin Elm və təhsil komitəsinin dünən keçirilən iclasında bu fikirləri səsləndirən komitə sədri İsa Həbibbəyli bildirdi ki, bu sənədin qəbulu ilə "Təhsil haqqında" qanundakı bütün təhsil səviyyələri üzrə ayrıca qanun hazırlanacaq. Komitə üçün ötənilki ən böyük nailiyyət isə "Ümumtəhsil haqqında" qanunun qəbulu olub. Komitə sədri xatırlatdı ki, son illərdə Milli Məclisdə "Məktəbəqədər təhsil haqqında", "Peşə təhsili haqqında" qanun layihələri də müzakirəyə çıxarılaraq qəbul edilib. Ali təhsillə bağlı qanun layihəsinin hazırlanması isə Azərbaycanın elm tarixinin əhəmiyyətli hadisəsi kimi tarixə yazılacaq.

Ötən sessiya müddətində komitənin gördüyü işlərlə bağlı geniş məlumat verən İsa Həbibbəyli bildirdi ki, bu müddət ərzində komitəyə 190 müraciət daxil olub. Müraciətlərin böyük əksəriyyəti tələbələrin təhsil haqlarının ödənilməsi ilə bağlıdır: "Ona görə də biz tələbələrin təhsil haqları ilə bağlı ayrıca qanun layihəsinin yaradılmasını məqsədəuyğun hesab edirik. 2017-ci ildən Maarifçi Təhsil Kredit Fondu yaradılıb. Bu fond vasitəsilə ölkəmizin müxtəlif ali məktəblərində oxuyan və ehtiyacı olan tələbələrə kömək göstərilib. Bu kömək vasitəsilə bütün ödənişli təhsil alanların hamısının ehtiyacını ödəmək mümkün deyil. Ona görə də xüsusi qanun layihəsinin hazırlanmasına çalışırıq. Elm və təhsil komitəsi təhsil kreditləri ilə bağlı iş aparır. Təhsil Nazirliyi və digər nazirliklərlə danışıqlar aparırıq. "Təhsil kreditləri haqqında" qanun layihəsinin hazırlanmasnı günün əsas məsələsi hesab edirik".

Komitə sədrinin sözlərinə görə, "Ali təhsil haqqında" qanun layihəsini bitirdikdən sonra "Təhsil kreditləri haqqında" qanun layihəsi hazırlanacaq. Təhsil Nazirliyi, müvafiq nazirliklər ilə müəyyən söhbətlər aparılır. Artıq Təhsil Nazirliyi bu istiqamətdə öz təkliflərini hazırlayıb Maliyyə Nazirliyinə təqdim edib.

İclasda komitə sədrinin müavini Bəxtiyar Əliyev, komitə üzvləri - Rafael Hüseynov, Asim Mollazadə, Şəmsəddin Hacıyev, Musa Qasımlı çıxış edərək yeni hazırlanan "Ali təhsil haqqında" qanun layihəsinin çox vacib sənəd olduğunu vurğuladılar. Qeyd edildi ki, həm ali təhsil, həm də təhsil kreditləri ilə bağlı yeni sənədlərin hazırlanması Azərbaycanda təhsilin, elmin inkişafına öz müsbət töhfəsini verə bilər.

Sonra komitədə "Uşaq hüquqları haqqında", "Gənclər siyasəti haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında", "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə" qanun layihəsi (ikinci oxunuş) müzakirəyə çıxarıldı. Dəyişikliklər "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanuna uyğunlaşdırmaq məqsədi daşıyır.

Komitə üzvləri bu məsələyə müsbət münasibət bildirdilər və sənəd Milli Məclisin plenar iclasına tövsiyə olundu.

**Azərbaycan.- 2019.- 18 sentyabr.- S. 2.**